**İnanmaya bilərsiniz, ancaq belədir…**

Tibb elminə aid statistikanın yaddaşında ağlasığmaz görünən hadisələr də var. İnsan orqanizmi dəyişkən, plastik olduğundan qəbul olunmuş standartlardan tam fərqli faktlara da rast gəlmək mümkündür. Həmin faktlardan bir neçəsi «med.az» saytında təqdim olunmuşdur.

· 1980-ci ildə ABŞ-ın Corciya ştatında xəstəxanaya müraciət edən Uill Consda insan bədəni üçün ən yüksək temperatur - 46,5 S qeydə alınıb. 24 gündən sonra o, xəstəxanadan evə buraxılmışdı.

· İnsan üçün ən aşağı temperatur 1994-cü il fevralın 23-də Kanadada Recayn şəhərində qeydə alınıb. İki yaşlı Karli Kozolofski qapının çırpılması nəticəsində 6 saat mənfi 22 dərəcə soyuqda qalıb. O, tapılanda bədənin temperaturu 14,2-yə düşmüşdü...

· Kompulsiv davranışları ilə diqqət çəkən qadının qarnından 2533 əşya tapılıb. Bunların arasında 947 ingilis sancağı da olub. Qadın isə sadəcə qarnında «yüngül sancıdan» şikayət edirdi...

· Nevroloji sarsıntıdan əziyyət çəkən daha bir qadının qarnından isə 2,35 kq ağırlığında tük yığını çıxarılıb. Bu, insan qarnından çıxarılan ən ağır əşya kimi tibb tarixinə düşüb.

· Bəzi xəstələr udduğu dərman preparatlarının sayına görə rekordsmen sayılırlar. Bunlardan biri də zimbabveli K.Kilnerdir. O, 21 il ərzində 565939 həb qəbul etmişdi. İynə vurdurmaq birinciliyi isə böyük britaniyalı Samuel Deyvidsona məxsusdur. O, ömrü boyu 78900 insulta qarşı iynə vurdurmuşdu...

· ABŞ-lı Çarlz Yensen 1954-1994-cü illər ərzində 970 əməliyyatdan keçib. Ən uzunmüddətli əməliyyat isə 96 saat ərzində yumurtalıqdan kistanın götürülməsi olub. Bu zaman pasiyentin çəkisi 280 kq-dan 140-a düşmüşdü...

· Bir neçə il öncə norveçli balıqçı Yan Revsdal dekabr ayında Bergan rayonunda gəmidən suya yıxılmışdı. Nəticədə onun bədəninin temperaturu 24 dərəcəyə düşmüş, ürəyi isə 4 saatlığına dayanmışdı. Bu, tam sağalma ilə nəticələnən ən uzun ürək dayanmasıdır.